**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 02 Sentyabr 2017-ci il tarixində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik (ANAMA) tərəfindən Xızı rayonunda aşkar olunmuş Partlamamış Hərbi Sursatlar (PHS) haqqında

## GÜNDƏLİK OPERATİV MƏLUMAT

Xızı rayonu ərazisində yerləşən Müdafiə Nazirliyin N saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla əlaqədar Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA), Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyinın birgə keçirdiyi təmizləmə əməliyyatları barədə:

02 Sentyabr 2017-ci il tarixində hərbi hissənin ətrafında, Giləzi qəsəbəsində, Sitalçay və Şurabad kəndləri ərazisində 4 evin həyətyanı sahəsinə, 2 əkin sahəsinə, 2 qəbirstanlığın yaxınlığına, ferma ərazisinə, Samur-Abşeron kanalının içərisinə və ətrafına baxış keçirilmiş, **183 ədəd partlamamış hərbi sursat (PHS),** 729 ədəd partlamış-yanmış raketin qalıqları, 570 kq yandırma aşkar olunaraq götürülmüş, nəticə etibarilə **1 298 623 kv.m (129.86 ha) ərazi** yoxlanılmışdır.

**Ümumiyyətlə, 7 gün ərzində 11 ev, 38 evin həyətyanı sahəsinə, 5 ferma ərazisinə, 5 əkin sahəsinə, 6 otlaq sahəsinə, 2 məktəb ərazisinə, 3 dəmiryolu xətininə, 1 rabitə qovşağına, 1 telestudio ərazisinə, 1 kənd qəbirstanlığına, 1 su kanalına, 1 istixanaya, 1 hərbi şəhərciyə, 1 kənd məscidinin yaxınlığına, su stansiyasına, balıqçılıq təsərrüfatına, eko-turizmin həyətyanı sahəsinə, taxıl anbarının yaxınlığına yol kənarına, Samur-Abşeron kanalının içərisinə və ətrafına baxış keçirilmiş, 9 075 477 kv. m (907.55 ha) əraziyə yoxlanılmış, 884 ədəd partlamamış hərbi sursat, 1 101 ədəd partlamış-yanmış sursat qalıqları və 1 179 kq yandırma aşkar olunaraq götürülmüşdür.**

Bununla yanaşı, Xızı rayonun Giləzi qəsəbəsi, Stalçay və Şurabad kəndləri ərazisində 3 441 nəfər yerli sakin arasında mina təhlukəsizliyinə dair maarifləndirmə təbliğatı aparılmışdır.









